*«Dövlət qeydiyyatına alınmışdır»*
*Azərbaycan Respublikasının*
*Ədliyyə Nazirliyi*
*Qeydiyyat № 2938*
*06 noyabr 2002-ci il*
*Nazir*
*F.MƏMMƏDOV*

*«Təsdiq edirəm»*
*Azərbaycan Respublikasının*
*İqtisadi İnkişaf Nazirliyi*
*Əmr № 74*
*05 noyabr 2002-ci il*
*Nazir*
*F.ƏLİYEV*

# Lisenziyalaşdırma sahəsində qanunvericiliyə riayət edilməsinə nəzarət və lisenziya blanklarının istifadəsinin uçotunun aparılması Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanına əsasən hazırlanmışdır və lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətli orqan olan Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi (bundan sonra «Nazirlik») tərəfindən dövlət orqanları və təsərrüfat subyektlərinin lisenziyalaşdırma sahəsində qanunvericiliyə riayət etmələrinə nəzarət və lisenziya blanklarının hazırlanmasına sifariş verilməsi, onların bölgüsü, blankların istifadəsinin uçotunun və hesabatının aparılması qaydasını müəyyən edir.

1.2. Lisenziya blanklarının hazırlanmasına sifariş verilməsi, onların bölgüsü, blankların istifadəsinin uçotunun və hesabatının aparılması Nazirlik tərəfindən həyata keçirilir.

## 2. Lisenziya verən dövlət orqanlarının lisenziyalaşdırma sahəsində qanunvericiliyə riayət etməsinə nəzarət

2.1. Lisenziya verən dövlət orqanlarının lisenziyalaşdırma sahəsində qanunvericiliyə riayət etməsinə nəzarət Nazirlik tərəfindən dövlət, qeyri-dövlət təşkilatları və fiziki şəxslərin müvafiq qaydada daxil olmuş müraciətləri əsasında aşağıdakı qaydada həyata keçirilir:

2.1.1. Lisenziya verən dövlət orqanı tərəfindən lisenziyanın verilməsi zamanı qanunvericiliyin tələblərinə riayət olunmasının,

2.1.2. Vahid lisenziya reyestrinə daxil etmək üçün lisenziya verən dövlət orqanı tərəfindən təqdim edilmiş məlumatların «Azərbaycan Respublikasında vahid lisenziya reyestrinin aparılması Qaydaları»na uyğun olmasının,

2.1.3. Qanunvericiliklə müəyyən edilmiş məbləğdə dövlət rüsumunun düzgün ödənilməsinin,

2.1.4. «xüsusi razılıq (lisenziya) forması və onun doldurulması Qaydaları»na riayət olunmasının araşdırılması.

## *3. Təsərrüfat subyektlərinin lisenziyalaşdırma sahəsində qanunvericiliyə riayət etməsinə nəzarət*

3.1. Təsərrüfat subyektlərinin lisenziyalaşdırma sahəsində qanunvericiliyə riayət etməsinə nəzarət Nazirlik tərəfindən dövlət, qeyri-dövlət təşkilatları və fiziki şəxslərin müvafiq qaydada daxil olmuş müraciətləri əsasında aşağıdakı qaydada həyata keçirilir:

3.1.1. Fəaliyyət növünün xüsusiyyətindən asılı olaraq qanunvericiliklə müəyyən edilmiş əlavə şərtlərə riayət olunmasının,

3.1.2. Lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına dair lisenziya almış hüquqi və fiziki şəxslər tərəfindən təqdim edilmiş məlumatın düzgünlüyünün araşdırılması.

## *4. Lisenziya almış hüquqi və fiziki şəxslər tərəfindən lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına dair məlumatın doldurulması*

4.1. Məlumat – lisenziya almış hüquqi və fiziki şəxslər tərəfindən lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına dair lisenziya verən dövlət orqanına ildə bir dəfə təqdim edilən sənəddir (əlavə №1 – məlumat forması).

4.2. Məlumat lisenziya qüvvədə olduğu müddət ərzində lisenziyanın verilməsi tarixinin hər ili tamam olduqdan sonra 10 gün müddətində təqdim edilir.

4.3. Məlumatda aşağıdakılar göstərilir:

Lisenziya verən dövlət orqanının adı, lisenziyanın nömrəsi, qeydiyyat nömrəsi və verilmə tarixi, fəaliyyət növünün adı, hüquqi şəxsin adı və hüquqi ünvanı, fiziki şəxsin adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumat (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı), lisenziya tələblərinə və şərtlərinə riayət olunub – olunmaması və lisenziya verildiyi tarixdən məlumat verilən tarixədək dəyişikliklərin olması barədə məlumat.

## *5. Lisenziyalaşdırma sahəsində nəzarət həyata keçirilərkən sənədlərin doldurulması*

5.1. Göstəriş.

5.1.1. Göstəriş – lisenziyalaşdırma sahəsində araşdırmanın həyata keçirilməsinə hüquq verən sənəddir (əlavə №2 – göstəriş forması).

5.1.2. Nazirlik tərəfindən lisenziyalaşdırma sahəsində həyata keçirilən araşdırma Nazirliyin rəhbərinin, o olmadığı halda onun müavininin imzası ilə təsdiq edilmiş göstəriş əsasında aparıla bilər.

5.1.3. Göstərişdə aşağıdakılar əks etdirilir:

- araşdırmanı həyata keçirən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı, araşdırma keçiriləcək lisenziya verən dövlət orqanının və təsərrüfat subyektinin (bundan sonra «Subyekt») adı, ünvanı, göstərişin məzmunu, araşdırmanın müddəti, göstərişin verilmə tarixi.

5.2. Akt.

5.2.1. Nazirliyin əməkdaşları lisenziyalaşdırma sahəsində araşdırmanı apararkən aşkar edilən pozuntular barədə subyektin səlahiyyətli nümayəndəsinin iştirakı ilə akt tərtib edilir. Eyni zamanda lisenziya verən dövlət orqanı lisenziya almış hüquqi və fiziki şəxslərin fəaliyyətinin lisenziya tələblərinə və şərtlərinə uyğunluğunu yoxlayarkən akt tərtib edilir (əlavə №3 – akt forması). İmzalanmış akt 3 nüsxədən ibarət olmalıdır və bir nüsxə subyektin səlahiyyətli nümayəndəsinə, bir nüsxə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin nümayəndəsinə təqdim edilməlidir.

5.2.2. Bütün aktlara sıra nömrəsi verilməlidir. Aktların hesabatı və həyata keçirilmiş araşdırmanın nəticələri müvafiq kitabda qeyd olunur. Kitabdakı nömrə ilə Aktın nömrəsi eyni olmalıdır. Aktlarda sonradan düzəlişlər etmək olmaz.

5.2.3. Aktda aşağıdakılar göstərilir:

- aktın tərtib edildiyi tarix və yer, dövlət orqanının adı, həmin orqanın nümayəndələrinin vəzifəsi, adı, əoyadı, subyektin adı, nümayəndəsinin vəzifəsi, soyadı, adı, atasının adı, araşdırma zamanı aşkar olunan normativ-hüquqi pozuntuların mahiyyəti.

5.2.4. Subyektin nümayəndəsi tərtib edilmiş aktı imzalamaqdan imtina etdiyi halda, yoxlamanı aparan (araşdırmanı həyata keçirən) təşkilatın əməkdaşı bu haqda aktda qeydiyyat apararaq, yenidən öz imzası ilə belə halı təsdiq etməlidir. Akta imza etməkdən imtina edilməsi işin dayandırılması üçün əsas deyil. Subyektin nümayəndəsi aktın məzmununa dair verdiyi izahatda pozuntunun səbəbini, Akta olan etirazını və imza etməməsinin səbəbini göstərə bilər.

5.3. Qərar.

5.3.1. Lisenziya verən dövlət orqanı təsərrüfat subyektləri tərəfindən yol verilmiş nöqsanların aradan qaldırılması üçün qərar çıxara bilər (əlavə №4 – qərar forması).

5.3.2. Qərar lisenziyalaşdırma sahəsində mövcud qanunvericiliyə uyğun olmalıdır.

5.3.3. Qərarda aşağıdakılar göstərilir:

- Qərarın nömrəsi və tarix, təsərrüfat subyektinin ünvanı, təsərrüfat subyektinin adı, nümayəndəsinin soyadı, adı, atasının adı, lisenziya verən dövlət orqanının adı, yoxlamanın keçirildiyi vaxt və tərtib olunmuş aktın nömrəsi və tarixi, yoxlama zamanı aşkar olunmuş qanun pozuntularının mahiyyəti və onun aradan qaldırılmasına dair tələblər, icra tarixi və qüvvədə olduğu müddət; qərarın icrası üçün məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının adı.

5.4. Sərəncam:

5.4.1. Nazirliyin lisenziyalaşdırma məsələləri üzrə sərəncamı mərkəzi icra hakimiyyəti orqanları, yerli icra hakimiyyəti orqanları və yerli özünü idarəetmə

orqanları, hüquqi və fiziki şəxslər üçün məcburidir (əlavə №5 – sərəncam forması).

5.4.2. Qanunvericiliyə uyğun tərtib olunan Sərəncamda aşağıdakılar göstərilir:

- Sərəncamın nömrəsi və tarixi; subyektin ünvanı, subyektin adı, səlahiyyətli nümayəndəsinin vəzifəsi, soyadı, adı, atasının adı, sərəncam verən dövlət orqanının adı, araşdırmanın keçirildiyi vaxt və tərtib olunmuş aktın (protokolun) nömrəsi və tarixi, araşdırma zamanı aşkar olunmuş qanun pozuntularının mahiyyəti və onun aradan qaldırılmasına dair tapşırıq, icra tarixi və qüvvədə olduğu müddət, sərəncamın icrası üçün məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının adı.

## *6. Lisenziya blanklarının hazırlanmasına sifariş verilməsi, bölgüsü və istifadəsinin uçotunun aparılması*

6.1. Lisenziya blanklarının sifariş olunması üçün bu fəaliyyət növünə xüsusi razılıq (lisenziya) almış təsərrüfat subyekti Nazirlik tərəfindən müvafiq qaydada müəyyən edilir və lisenziya blankları təsdiq olunmuş formaya və tələbata uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada sifariş olunur.

6.2. Çap olunmuş lisenziya blanklarının uçotu Nazirlik tərəfindən aparılır.

6.3. Yazılı müraciətə əsasən lisenziya verən dövlət orqanının tələbatına uyğun olaraq lisenziya blanklarının müvafiq qaydada verilməsi Nazirlik tərəfindən 5 (beş) iş günü ərzində həyata keçirilir.

6.4. Lisenziya verən dövlət orqanları tərəfindən hər ayın 10-dək lisenziya blanklarının istifadəsinə dair hesabat Nazirliyə təqdim edilir.

6.5. Lisenziya blanklarının istifadəsinin uçotu Nazirlik tərəfindən aparılır.

## *7. Məsuliyyət*

7.1. Məlumatı verən hüquqi və fiziki şəxslər yanlış məlumatın verilməsinə görə qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

7.2. Bu Qaydalarda müəyyən olunmuş müddəaları pozan vəzifəli şəxslər qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar.

***«Azərbaycan Respublikası Mərkəzi İcra Hakimiyyəti Orqanlarının Normativ Hüquqi aktlarının Bülleteni»ndə dərc edilmişdir (2002-ci il, № 10-11, səh. 7) («VneshExpertService» LLC).***

---

*Əlavə № 1*

# Lisenziya almış hüquqi və fiziki şəxslər tərəfindən lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına dair məlumat

Lisenziya verən dövlət orqanının adı ________________________________________________________

Lisenziyanın nömrəsi ___________________________________________________________________

Qeydiyyat nömrəsi və verilmə tarixi _______________________________________________________

Fəaliyyət növünün adı ___________________________________________________________

Hüquqi şəxsin adı və hüquqi ünvanı (fiziki şəxsin adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumat (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı)) __________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________

Lisenziya tələblərinə və şərtlərinə riayət olunub/olunmayıb (lazım olmayan pozulsun).

Lisenziya verildiyi tarixdən məlumat verilən tarixədək dəyişikliklərin olması barədə məlumat ________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________

Məlumat verən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı _______________________ ___________

*(imza)*

«_____»______________200____il M.Y.

**Qeyd:** Məlumatı verən şəxs yanlış məlumat verilməsinə görə qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

*Əlavə № 2*

# Göstəriş № ___

_____________________________________________________________________________________

*(araşdırmanı həyata keçirən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı)*

tapşırılır ki, __________________________________________________________________________

*(subyektin adı, ünvanı)*

_____________________________________________________________________________________
_____________________________________________________________________________________
_____________________________________________________________________________________

*(göstərişin məzmunu)*

_____________________________________________________________________________________
_______________________________________________________________ araşdırmanı həyata keçirsin.

_______________________________________ Araşdırmanın müddəti _____________________

*(dövlət orqanının adı, rəhbərinin vəzifəsi, soyadı, adı)*

M.Y. _______________________________________

*(imza)*

«___» ______________ 200___ il

---

***Qeyd: Göstəriş xidməti vəsiqə təqdim edildikdə etibarlıdır.***

---

# Lisenziya tələblərinə və şərtlərinə riayət olunmasına dair AKT

«_____» ____________ 200_____ il ______________________ şəhəri

_______________________________________________________________________________

_______________________________________________________________________________

*(dövlət orqanının adı, həmin orqanın nümayəndələrinin vəzifəsi, adı, soyadı)*

_________ saylı, __________________ tarixli göstərişə əsasən ______________________________

*(subyektin ünvanı)*

________________________ ünvanında yerləşən ________________________________________

*(subyektin adı)*

____________________ subyektin nümayəndəsi ________________________________________

*(nümayəndənin vəzifəsi, adı, soyadı)*

__________________________________________________ iştirakı ilə aşağıdakılar aşkar edilmişdir

_______________________________________________________________________________

_______________________________________________________________________________

_______________________________________________________________________________

_______________________________________________________________________________

*(pozulmuş normativ-hüquqi aktın adı göstərilməklə pozuntunun tərkibi)*

yoxlanılan (araşdırılması həyata keçirilən) subyektin nümayəndələrinə Azərbaycan Respublikasının mövcud Qanunvericiliyində nəzərdə tutulmuş hüquq və vəzifələri izah edilmişdir.

Aktın doğruluğunu imzalarımızla təsdiq edirik:

| **Lisenziya araşdırılmasını həyata keçirən dövlət orqanının nümayəndələri** | | **Yoxlanılan subyektin nümayəndələri** | |
|---|---|---|---|
| _________________________ | ___________ | _________________________ | ___________ |
| *(vəzifəsi, soyadı)* | *(imza)* | *(vəzifəsi, soyadı)* | *(imza)* |
| _________________________ | ___________ | _________________________ | ___________ |
| *(vəzifəsi, soyadı)* | *(imza)* | *(vəzifəsi, soyadı)* | *(imza)* |
| _________________________ | ___________ | _________________________ | ___________ |
| *(vəzifəsi, soyadı)* | *(imza)* | *(vəzifəsi, soyadı)* | *(imza)* |

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin nümayəndələri

| | | | |
|---|---|---|---|
| _________________________ | ___________ | _________________________ | ___________ |
| *(vəzifəsi, soyadı)* | *(imza)* | *(vəzifəsi, soyadı)* | *(imza)* |

---

**Qeyd:** Yoxlanılan (araşdırılması həyata keçirilən) subyektin nümayəndələri aparılan yoxlama (araşdırma) zamanı dövlət orqanının nümayəndələrinə yoxlamanın (araşdırılmanın)aparılması üçün zəruri olan normal

şərait yaratmağa və tələb olunan sənədləri onlara təqdim etməyə borcludur. Yoxlanılan (araşdırılması həyata keçirilən) subyektin nümayəndələri tərəfindən Akta imza etməkdən imtina edildiyi halda bu barədə Aktda qeyd edilir və Akta subyektin nümayəndəsinin izahatı əlavə edilir. Akta imza etməkdən imtina edilməsi işin dayandırılması üçün əsas sayılmır.

---

*Əlavə №4*

# Qərar №_____

«____» __________ 2002-ci il

________________________________________________________________________ünvanlarında yerləşən

*(təsərrüfat subyektinin ünvanı)*

____________________________________________________________________________

*(təsərrüfat subyektinin adı, nümayəndəsinin soyadı, adı, atasının adı)*

___________________tarixdə ____________________________________________ əməkdaşları tərəfindən

*(lisenziya verən dövlət orqanının adı)*

yoxlama keçirilmiş, qanun pozuntuları aşkar edilmiş və ________ saylı, ______________________ tarixli Akt tərtib edilmişdir. Yoxlama zamanı aşağıdakı qanun pozuntuları aşkar edilmişdir ______________

____________________________________________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

*(pozulmuş normativ-hüquqi aktın adı, pozuntunun tərkibi)*

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanının müddəalarını rəhbər tutaraq qərara alıram:

____________________________________________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

*(qərarın məzmunu, icra tarixi və qüvvədə olduğu müddət)*

Qərarın icrası üçün məsuliyyət _______________________________________________________________

*(vəzifəsi, soyadı, adı, atasının adı)*

______________________________________________________________________________ həvalə olunur

_______________________________________________________________ _________________________

*(lisenziya verən dövlət orqanının adı, rəhbərinin vəzifəsi, soyadı, adı)* *(imza)*

M.Y.

---

*Əlavə №5*

# **Sərəncam № ________**

«____» __________ 2002-ci il

____________________________________________________________________________ ünvanda yerləşən

*(subyektinin ünvanı)*

________________________________________________________________________________________

*(subyektin adı, səlahiyyətli nümayəndəsinin vəzifəsi, soyadı, adı, atasının adı)*

_____________________ tarixdə ________________________________________ əməkdaşları tərəfindən

*(dövlət orqanın adı)*

araşdırma həyata keçirilərkən qanun pozuntuları aşkar edilmiş və __________ saylı, _______________ tarixli Akt tərtib edilmişdir. Araşdırma zamanı aşağıdakı qanun pozuntuları aşkar edilmişdir ________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________

*(pozulmuş normativ-hüquqi aktın adı, pozuntunun tərkibi)*

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanının müddəalarını rəhbər tutaraq qərara alıram:
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________
________________________________________________________________________________________

*(sərəncamın məzmunu, icra tarixi və qüvvədə olduğu müddət)*

Sərəncamın icrası üçün məsuliyyət _________________________________________________________

*(vəzifəsi, soyadı, adı, atasının adı)*

____________________________________________________________________________ həvalə olunur.

___________________________________________________________ ____________________________

*( dövlət orqanının adı, rəhbərinin vəzifəsi, soyadı, adı)* *(imza)*

M.Y.